

*Mənsurə QAÇAYQIZI*

## AY İŞIĞI

Deyəsən, bu gecə ömrümə düşən,
Sən, Ay işığı da, işıq deyilsən.
Bəlkə də sən məni aldatmaq üçün
Sabah gəlməliydin, bu gün gəlmisən?!

Niyə baxışların belə dumanlı?!
Gəl bu pərdəni at, sən ay üzündən.
De görüm, sən məndən nə gizlədirsən,
Nələr oxumuram sənin gözündən?!

Görürsən... nədənsə heç sevinmirəm,
Səbəbi? Sən məni tərk edəcəksən.
Bir anlıq sevincə öyrəncəliyəm,
Mən hardan bilim ki, sabah gələssən?!.

## GÜNÜN BİRİNDƏ

Bu şeiri yazmışdım günün birində,
Yadımda deyil ki qışıydı, yazdı.
Bu şeiri yazmışdım günün birində,
Bir onu bilirəm qəlbim payızdı.

Bu şeiri yazmışdım günün birində,
Yadımda deyil ki saat neçəydi.
Ya səhər mehinin əsən vaxtıydı,
Ya da ki qaranlıq zülmət gecəydi.

Bu şeiri yazmışdım günün birində,
Hansı məkanıydı, harda, bilmirəm...
Ruhum uzaqlarda, ya yaxındaydı,
Yadıma hələ də sala bilmirəm.

Bu şeiri yazmışdım günün birində,
Yox idi yanımda nə dost, nə tanış.
Bircə qələm idi, tutub əlimdən
Demişdi bir az da mənimlə danış.

## YADIMDASAN

Bulud ötdü göy üzündə
əlçim-əlçim, topa-topa.
İstədim ki o ağ bulud
Məni göylərə apara.
Səni andım...
Yadımdasan...

Yağış yagdı narın-narın,
Cilvələndi arzularım.
İstədim ki,
o yağışın altındaca
qaçım, qaçım,
qaçım dünyanı dolanım,
səni andım
yadımdasan...

günəş doğdu, dövrə vurdu
göy üzündə göy qurşagı
rənglərinə əl uzatdım
səni andım
yadımdasan...

## BİR AZ...

Lap elə bu payız havası kimi,
Bir az dəli olaq, bir az da dolu.
Dolaşaq dünyanı dəlilər kimi,
Alaq əlimizə cığırı, yolu...

Bir az nağıl olaq, bir az da şirin,
Qarışaq dünyanın yalan ətrinə...

Kəpənək ömrünü yaşasaq belə,
Bir çələng hörərik ömrün sətrinə.

Lap elə unudaq adımızı da,
Hərflər qarışsın biri-birinə.
Bir adla dagılır dünya, dagılsın,
Niyə dəyməliyik adın xətrinə.

Bir az agac olaq, bir az daş olaq,
Bir az səpələnək lap elə qumtək.
Saatın əqrəbi heç işləməsin,
Uçan saniyələr de nəyə gərək...

## O NƏ GÖZƏL YUXU İDİ

Ağ-ağ cicəkləri vardı,
Gözəl ləçəkləri vardı,
Ətri saçlarımda qaldı,
O nə gözəl yuxu idi.

Uçan xalçası da gözəl.
Bağı-bağçası da gözəl,
Sözdən xonçası da gözəl,
O nə gözəl yuxu idi.

Bir həzincə musiqiydi
Şipşirin layla deyirdi.
Nə sirriydi, nə səsiydi,
O nə gözəl yuxu idi.

Aldı məni də apardı,
Ruhumu məndən qopardı.
İstəmirəm qaytaraydı,
O nə gözəl yuxu idi.

Çıxıb uzaqlara getdi,
Bir qırpımda gözdən itdi.
Kaş ki özu də biləydi
O bir gözəl yuxu idi...